# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

## “Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında

“Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 775-VIQD nömrəli Qanununun tətbiqi və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 yanvar tarixli 2004 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair Qaydalar” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

3. Bu Qərarın 1-ci hissəsi dərc edildiyi tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 24 iyun 2024-cü il

№ 312

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 iyun tarixli 312 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

# Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair

# QAYDALAR

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 12.4-cü maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının gömrük ərazisinə (bundan sonra – gömrük ərazisi) gətirilən malların gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqi ilə bağlı təşkilati və hüquqi əsasları müəyyənləşdirir.

1.2. Malların gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqi Qanunun 7.1-ci maddəsinə uyğun olaraq 1994-cü il Tariflər və Ticarət üzrə Baş Sazişin VII maddəsinin tətbiq edilməsinə dair Razılaşmanın I Əlavəsinə əsaslanır.

1.3. Qanunun 12.1-ci maddəsinə uyğun olaraq gömrük ərazisinə gətirilən malların gömrük dəyəri aşağıdakı üsullarla müəyyən edilir:

1.3.1. malların sövdələşmə qiyməti ilə;

1.3.2. eyni malların sövdələşmə qiyməti ilə;

1.3.3. eynicinsli malların sövdələşmə qiyməti ilə;

1.3.4. dəyərin çıxılması üsulu ilə;

1.3.5. dəyərin toplanması üsulu ilə;

1.3.6. ehtiyat üsulu ilə.

1.4. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.4.1. **qəbul olunmuş mühasibat uçotu prinsipləri** - hər hansı ölkə daxilində müəyyən vaxtda aktivlər və öhdəliklər kimi əks olunan iqtisadi resurslar, aktiv və öhdəliklərdə nəzərə alınmalı olan dəyişikliklər, aktiv və öhdəliklərin və onlarda dəyişikliklərin ölçülmə qaydasına, açıqlanmalı informasiya və onun açıqlanma qaydasına, habelə hazırlanmalı olan maliyyə hesabatlarına münasibətdə praktikada tətbiq edilən işgüzar dövriyyə adəti və ya dövlət qurumları tərəfindən təsdiq edilən qaydalar. Bu prinsiplər geniş tətbiq üçün ümumi təlimatlar, detallı təcrübələr və ya prosedurlar da ola bilər;

1.4.2. **endirim** - müəyyən vaxt və şərtlər daxilində müəyyən müştərilər üçün konkret malların ilkin müəyyənləşdirilmiş qiymətinə münasibətdə mütləq məbləğdə və ya faiz nisbətində ifadə olunan azalma.

1.5. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

1.6. Gömrük orqanı Qanunun tətbiq olunan maddəsində nəzərdə tutulan ölkədə qəbul olunmuş mühasibat uçotu prinsiplərinə uyğun olan formada hazırlanmış informasiyanı istifadə etməlidir.

1.7. Gömrük dəyərləndirmə üsulları bu Qaydaların 1.3.1-1.3.6-cı yarımbəndlərində tətbiq ardıcıllığına görə təsbit edilmişdir.

1.8. Gömrük ərazisinə gətirilən malların gömrük dəyəri Qanunun 13-cü maddəsində təsbit olunan şərtlərə riayət olunan bütün hallarda bu Qaydaların 1.3.1-ci yarımbəndində nəzərdə tutulan üsula uyğun olaraq müəyyən edilməlidir.

1.9. Bu Qaydaların 1.3.1-ci yarımbəndində nəzərdə tutulan üsuldan istifadə etmək mümkün olmadıqda, bu Qaydaların 1.3.2-1.3.6-cı yarımbəndlərində göstərilən üsullardan hər biri ardıcıl olaraq tətbiq edilir. Bu Qaydaların 1.10-cu bəndində nəzərdə tutulan hal istisna olmaqla, həmin ardıcıllıq üzrə gömrük dəyərinin müəyyən edilməsi üçün növbəti üsuldan yalnız əvvəlki üsul əsasında gömrük dəyərinin müəyyən edilməsi mümkün olmadığı halda istifadə edilir.

1.10. Bəyannaməçi dəyərin çıxılması üsulu ilə dəyərin toplanması üsulunun ardıcıllığının dəyişdirilməsini tələb etmirsə, bu Qaydaların 1.3-cü bəndinə müvafiq ardıcıllığa riayət olunur. Həmin üsulların ardıcıllığının dəyişdirilməsi ilə bağlı bəyannaməçinin tələbi yazılı, o cümlədən elektron formada gömrük orqanına daxil olduğu halda, dəyərin çıxılması üsulu ilə dəyərin toplanması üsulunun tətbiq ardıcıllığı dəyişdirilir.

1.11. Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqi zamanı bu Qaydalara əlavədə göstərilən nümunələr və qeydlər nəzərə alınır.

## 2. Malların sövdələşmə qiyməti üsulunun tətbiqinə dair qaydalar

2.1. Faktiki ödənilmiş və ya ödənilməli olan qiymət alıcının idxal olunan malın satışının şərti kimi satıcıya və ya satıcının hər hansı bir öhdəliyini yerinə yetirmək üçün üçüncü şəxsə etdiyi və ya edəcəyi bütün ödənişləri əhatə edir. Ödənişlər nağdsız hesablaşmalar, habelə

qiymətli kağızlar, törəmə maliyyə alətləri vasitəsilə birbaşa və ya dolayı formada həyata keçirilə bilər.

2.2. Qanunun 13.2-ci maddəsində qeyd olunanlar istisna olmaqla, alıcı tərəfindən öz hesabına həyata keçirilən hərəkətlər onların satıcı üçün sərfəli hesab olunduğu və ya satıcı ilə qarşılıqlı razılaşma əsasında edildiyi hallarda belə, satıcıya dolayı ödəniş hesab olunmur. Belə hərəkətlərin dəyəri gömrük dəyərinin müəyyən edilməsi zamanı faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə əlavə edilmir.

2.3. Faktiki ödənilmiş və ya ödənilməli olan qiymət idxal olunmuş malların qiymətinə aid olmalıdır. İdxal olunmuş mallara aid olmayan alıcının satıcıya verdiyi dividendlər və digər ödəmələr gömrük dəyərinin tərkib hissəsinə daxil edilmir.

2.4. Qanunun 13.1.1-ci maddəsinə uyğun olaraq malların dəyərinə əhəmiyyətli dərəcədə təsir etməyən məhdudiyyətlər faktiki ödənilmiş və ya ödənilməli olan qiymətin sövdələşmə qiyməti hesab olunmasını istisna etmir.

2.5. Qanunun 13.1.2-ci maddəsinə uyğun olaraq satış və ya malların qiyməti həmin mallara münasibətdə dəyəri müəyyən edilə bilməyən hər hansı şərt və ya öhdəliklərdən asılı olduqda sövdələşmə qiyməti gömrük dəyərləndirilməsi məqsədləri üçün məqbul hesab olunmur.

2.6. İdxal olunan malların istehsalı və ya marketinqi ilə əlaqəli şərtlər və ya öhdəliklər sövdələşmə qiymətinin qəbul edilməməsi üçün əsas hesab olunmur.

2.7. Qanunun 13.2.2.2-ci maddəsində nəzərdə tutulan ləvazimatların idxal olunan mala aid edilməsi zamanı ləvazimatın dəyəri və həmin dəyərin idxal olunan mala proporsional paylaşdırma üsulu aşağıdakılara uyğun olaraq müəyyən edilir:

2.7.1. bu ləvazimatların idxal olunan mala aid edilməsi ağlabatan qaydada və qəbul olunmuş mühasibat uçotu prinsiplərinə uyğun həyata keçirilməlidir;

2.7.2. idxalatçı ləvazimatı onunla əlaqəli olmayan satıcıdan hər hansı ödənişlə əldə etdikdə, ləvazimatın dəyəri həmin ödəniş hesab olunur;

2.7.3. ləvazimat idxalatçı və ya idxalatçı ilə əlaqəli şəxs tərəfindən istehsal olunduqda, onun dəyəri ləvazimatın istehsal xərcləri hesab olunur;

2.7.4. ləvazimat idxalatçı tərəfindən əvvəlcədən istifadə edilmiş olduqda, onun idxalatçı tərəfindən əldə edilməsindən və ya idxalatçı

tərəfindən istehsal edilməsindən asılı olmayaraq, onun cari dəyərini müəyyən etmək üçün həmin ləvazimatın ilkin alış və ya istehsal qiyməti ləvazimatın istifadə edilmiş olması nəzərə alınmaqla endirilməlidir;

2.7.5. ləvazimatın dəyəri müəyyən edildikdə, bu dəyər idxal olunan mal və ya mal partiyalarına paylaşdırılmalıdır. Paylaşdırma üsulu idxalatçı tərəfindən təqdim olunan təsdiqedici sənədlərə əsasən müəyyən edilir.

2.8. Qanunun 13.2.2.4-cü maddəsinə uyğun olaraq faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə edilmiş əlavələr aşağıdakılar nəzərə alınmaqla, obyektiv və kəmiyyəti müəyyən edilə bilən məlumata əsaslanmalıdır:

2.8.1. əlavə olunmalı dəyərin müəyyən edilməsi ilə bağlı yükü idxalatçı və gömrük orqanı üçün minimallaşdırmaq məqsədilə ilk növbədə alıcının kommersiya hesabat sistemində mövcud olan hazır məlumatlardan istifadə edilməlidir;

2.8.2. alıcı tərəfindən təmin edilən onun aldığı və ya icarəyə götürdüyü elementlər üzrə əlavələr həmin elementlərin alış dəyəri və ya icarə haqqıdır;

2.8.3. dövlət və ya bələdiyyə mülkiyyətində olan elementlər üzrə əlavələr yalnız onların surətinin əldə edilməsi xərcindən ibarətdir;

2.8.4. əlavə ediləcək dəyərlərin hesablanması idxalatçının strukturu və idarəetmə təcrübəsi, habelə onun mühasibat metodlarından asılıdır;

2.8.5. dəyərin paylanması zamanı hər hala fərdi yanaşılmalı, paylanmaya təsir edə biləcək müxtəlif faktorlar (konkret bir idxalatçının strukturu və idarəetmə təcrübəsi, habelə onun mühasibat metodları) nəzərə alınmalıdır;

2.8.6. baxılan elementin istehsalı bir neçə ölkəni və müəyyən müddəti əhatə edirsə, düzəlişlər gömrük ərazisindən kənarda elementə faktiki əlavə edilən dəyərlə məhdudlaşmalıdır.

2.9. Qanunun 13.2.3-cü maddəsində qeyd olunmuş royalti və lisenziya haqqı digərləri ilə yanaşı, patentlər, ticarət nişanları və müəlliflik hüquqları üçün ödənişləri də əhatə edə bilər. İdxal olunan malın gömrük ərazisində çoxaldılmasına icazə vermək hüququ üçün ödənişlər gömrük dəyərinin müəyyən edilməsi zamanı idxal olunan mallar üzrə faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə əlavə edilmir.

2.10. İdxal olunan malın distribütorluğu və ya yenidən satışı hüququ üçün alıcı tərəfindən həyata keçirilən ödənişlər bu ödəmələrin

idxal olunan malın gömrük ərazisinə ixracı üçün şərt olmadığı hallarda idxal olunan mal üçün faktiki ödənilmiş və ya ödənilməli qiymətə daxil edilmir.

2.11. Qanunun 13.1.5-ci maddəsində sövdələşmə qiymətinin qəbul edilməsinin mümkün olduğu aşağıdakı hallar müəyyən edilir:

2.11.1. Qanunun 13.6-cı maddəsinə uyğun olaraq alıcı və satıcı əlaqəli şəxslər olduğu halda satış ilə əlaqəli şərtlər öyrənilməli və əlaqə qiymətə təsir etmədiyi halda sövdələşmə qiyməti gömrük dəyəri kimi qəbul edilməlidir;

2.11.2. idxalatçıya sövdələşmə qiymətinin əvvəllər gömrük orqanı tərəfindən qəbul edilmiş Qanunun 13.7.1-13.7.3-cü maddələrində qeyd olunmuş dəyərlərdən birinə yaxın olduğunu və bu səbəbdən Qanunun 13-cü maddəsinin məqsədləri üçün qəbul edilməsinin mümkün olduğunu sübut etməyə imkan yaradılır.

2.12. Bu Qaydaların 2.11.1-ci yarımbəndində nəzərdə tutulan hal satıcı və alıcının əlaqəli şəxslər olduğu bütün hallar üzrə şərtlərin öyrənilməsi məcburi hesab edilmir. Belə öyrənilmə yalnız qiymətin qəbul edilməsinin mümkünlüyü ilə bağlı şübhələr olduqda tələb olunur. Gömrük orqanlarının qiymətin qəbul edilməsinin mümkünlüyü ilə bağlı hər hansı şübhəsi olmadıqda, qiymət idxalatçıdan əlavə məlumat istənilmədən qəbul edilməlidir.

2.13. Sövdələşmə dəyərinin qəbul edilməsi gömrük orqanı tərəfindən əlavə sorğu verilmədən mümkün olmadığı halda, gömrük orqanı ona satışı əhatə edən şərtləri öyrənmək üçün zəruri ola biləcək detallı əlavə informasiyanın təmin edilməsi üçün idxalatçıya imkan yaratmalı və gömrük orqanı alıcı və satıcı arasındakı əlaqənin qiymətə təsir edib-etmədiyini müəyyən etmək məqsədilə sövdələşmənin müvafiq tərəflərini (o cümlədən alıcı və satıcının kommersiya əlaqələrini təşkil etmə forması, qiymətin hansı şəkildə formalaşması) araşdırmağa hazır olmalıdır. Alıcı və satıcının əlaqəli şəxslər olmasına baxmayaraq bir-biri ilə əlaqəli olmayan şəxslər kimi alqı-satqı etdiyi əsaslandırıla bildikdə qiymətin əlaqədən təsirlənmədiyi hesab edilir.

2.14. Qanunun 13.7-ci maddəsi ilə müəyyən edilmiş şərtlər yerinə yetirildikdə əlaqənin qiymətə təsiri araşdırılmır. Gömrük orqanında Qanunun 13.7-ci maddəsi ilə müəyyən edilmiş hallardan birinin yerinə yetirildiyi barədə məlumat olduqda idxalatçıdan bunun sübut edilməsi tələb edilmir. Qanunun 13.7.1-ci maddəsində “əlaqəli olmayan şəxslər” dedikdə istənilən xüsusi hal üzrə bir-biri ilə əlaqəli olmayan şəxslər başa düşülür.

2.15. Qanunun 13.7-ci maddəsinə uyğun olaraq bir dəyərin digər dəyərə yaxın olduğunun müəyyən edilməsi zamanı idxal olunan malların xarakteri, sənayenin xarakteri, malların idxal olunduğu mövsüm və dəyərlər arasında fərqin kommersiya baxımından əhəmiyyətli olub-olmaması nəzərə alınmalıdır. Belə amillər haldan-hala fərqlənə biləcəyinə görə hər bir hal üzrə müəyyən edilmiş faiz dərəcəsi kimi vahid standart tətbiq edilməsi mümkün hesab edilmir.

2.16. Qanunun 13-cü maddəsinin müddəalarına uyğun olaraq tələb olunan düzəlişlərə münasibətdə obyektiv və kəmiyyəti müəyyən edilə bilən məlumat mövcud olmadıqda, sövdələşmə qiyməti Qanunun 13-cü maddəsinə uyğun olaraq müəyyən edilə bilməz.

2.17. Gömrük ərazisinə gətirilən mallar alqı-satqının predmeti olmadıqda, o cümlədən aşağıdakı hallarda gömrük dəyərinin müəyyən edilməsi məqsədilə malların sövdələşmə qiyməti üsulu tətbiq olunmur:

2.17.1. gömrük ərazisinə əvəzsiz müqavilələr, xüsusən bağışlama müqavilələri, əvəzsiz göndərilmələr (o cümlədən, reklam, nümayiş nümunələrinin əvəzsiz göndərilməsi müqaviləsi) üzrə gətirildikdə;

2.17.2. gömrük ərazisinə icarə müqavilələri üzrə gətirildikdə;

2.17.3. gömrük ərazisinə ixrac məqsədilə satılan malların satış qiymətini nəzərdə tutmayan vasitəçilik müqavilələri, xüsusən komissiya müqaviləsi, konsiqnasiya müqaviləsi və agent müqaviləsi üzrə gətirildikdə;

2.17.4. gömrük ərazisinə malların və ya ekvivalentlərinin mülkiyyətçiyə qaytarılmasını nəzərdə tutan borc, əmtəə krediti müqavilələri üzrə gətirildikdə;

2.17.5. gömrük ərazisinə ekspertizaların, uyğunluğun yoxlanılması (təsdiqi), o cümlədən araşdırmaların, sınaqların, yoxlamaların, eksperimentlərin, xüsusiyyətlərinin nümayişinin aparılması üçün gətirildikdə;

2.17.6. gömrük ərazisinə nizamnamə kapitalına (fonduna) yerləşdirilməsi üçün gətirildikdə;

2.17.7. gömrük ərazisinə məhv edilmək üçün idxal edilmiş malların (tullantılar və ya qırıntılar) məhv edilməsi alıcı tərəfindən ödəniş həyata keçirilmədən, satıcı tərəfindən maliyyələşdirilərək həyata keçirildikdə.

2.18. Gömrük dəyərləndirilməsi zamanı satıcı tərəfindən idxal olunan mala aid olan və bəyanetmə anında qüvvədə olan müqavilədə

tətbiqi və həcmi nəzərdə tutulan endirimlər gömrük orqanı tərəfindən nəzərə alınır.

2.19. Vaxtından əvvəl ödənişə görə endirimlər gömrük bəyannaməsinin təsdiqi zamanı qiyməti faktiki olaraq ödənilməmiş mallara münasibətdə nəzərə alınır.

2.20. Gömrük bəyannaməsinin təsdiqindən sonra müqavilədə edilmiş dəyişikliklərdən yaranan endirimlər gömrük dəyərləndirilməsi zamanı nəzərə alınmır.

## 3. Eyni malların sövdələşmə qiyməti üsulunun tətbiqinə dair qaydalar

3.1. Malların gömrük dəyəri Qanunun 14-cü maddəsinə əsasən müəyyən edilərkən, dəyərləndirilən mallarla eyni kommersiya səviyyəsində və eyni və ya təqribən eyni miqdarda satılan eyni malların sövdələşmə qiymətindən istifadə olunur.

3.2. Eyni malların bu Qaydaların 3.1-ci bəndində göstərildiyi kimi eyni kommersiya səviyyəsində və eyni və ya təqribən eyni miqdarda satışı müəyyən edilmədikdə, bu Qaydaların 3.3-cü və 3.5-ci bəndləri nəzərə alınmaqla, aşağıdakı şərtlərdən hər hansı birinə cavab verən eyni malların satışının sövdələşmə qiymətindən istifadə olunur:

3.2.1. eyni kommersiya səviyyəsində, lakin dəyərləndirilən malların satıldığı miqdardan fərqli miqdarda satış;

3.2.2. fərqli kommersiya səviyyəsində, lakin dəyərləndirilən malların satıldığı eyni və ya təqribən eyni miqdarda satış;

3.2.3. fərqli kommersiya səviyyəsində və fərqli miqdarda satış.

3.3. Bu Qaydaların 3.2.1-3.2.3-cü yarımbəndlərində qeyd olunan şərtlərdən hər hansı birinə uyğun satış tapıldıqda, müvafiq olaraq aşağıdakılar üçün düzəliş edilir:

3.3.1. yalnız miqdar faktoru üçün;

3.3.2. yalnız kommersiya səviyyəsi faktoru üçün, yaxud;

3.3.3. həm miqdar, həm də kommersiya səviyyəsi faktoru üçün.

3.4. Bu Qaydaların 3.3.1-3.3.3-cü yarımbəndlərində nəzərdə tutulan müvafiq düzəlişlərin aparılması şərtilə bu Qaydaların 3.2.1-3.2.3-cü yarımbəndlərində qeyd olunan hallardan müvafiq olaraq istənilən biri idxalatçı tərəfindən seçilə bilər.

3.5. Qanunun 14-cü maddəsinin məqsədləri üçün “eyni malların sövdələşmə qiyməti” dedikdə, eyni malların Qanunun 13-cü maddəsinə müvafiq olaraq düzəlişlər edilməklə sövdələşmə qiyməti

üsulu əsasında müəyyən olunmuş və gömrük orqanı tərəfindən artıq qəbul edilmiş gömrük dəyəri başa düşülür.

3.6. Bu Qaydaların 3.3-cü bəndində göstərilən düzəlişlər malların dəyərinin aşağı düşməsi və ya yüksəlməsi ilə nəticələnməsindən asılı olmayaraq, ağlabatanlılığını və dəqiqliyini aşkar şəkildə nümayiş etdirən sübutlarla əsaslandırılmalıdır.

## 4. Eynicinsli malların sövdələşmə qiyməti üsulunun tətbiqinə dair qaydalar

4.1. Malların gömrük dəyəri Qanunun 15-ci maddəsinə əsasən müəyyən edilərkən, dəyərləndirilən mallarla eyni kommersiya səviyyəsində və eyni və ya təqribən eyni miqdarda satılan eynicinsli malların sövdələşmə qiymətindən istifadə olunur.

4.2. Malların gömrük dəyəri eynicinsli malların sövdələşmə qiyməti üsulundan istifadə olunmaqla müəyyən edilərkən, bu Qaydaların 3.2-3.6-cı bəndlərinin müddəaları analoji olaraq tətbiq edilir.

## 5. Dəyərin çıxılması üsulunun tətbiqinə dair qaydalar

5.1. Qanunun 16.2-ci maddəsində “ən böyük həcmdə, idxal olunduğu vəziyyətdə və əlaqəli olmayan şəxsə satılmış eyni və ya eynicinsli malların bir vahidinin Azərbaycan Respublikasındakı satış qiyməti” dedikdə, mal gömrük ərazisinə gətirildikdən sonrakı ilk kommersiya səviyyəsində, əlaqəli olmayan şəxslərə müxtəlif qiymətlərlə satışlardan ən böyük həcmdəki satışdakı vahidin satıldığı qiymət başa düşülür.

5.2. İdxal olunan malın istehsalı və ixracı üçün satışı ilə əlaqəli olaraq birbaşa və ya dolayı şəkildə əvəzsiz və ya endirimli qaydada Qanunun 13.2.2-ci maddəsindəki malları tədarük edən və xidmətləri göstərən şəxs tərəfindən malların bu Qaydaların 5.1-ci bəndində verilmiş mənada gömrük ərazisində satışı Qanunun 16-cı maddəsinin məqsədləri üçün mal vahidinin qiymətinin müəyyən edilməsi zamanı nəzərə alınmır.

5.3. Qanunun 16.2.1-ci maddəsində “gəlir götürmək və ümumi xərcləri ödəmək” ifadəsinə birlikdə baxılır. Qanunun 16.2.1-ci maddəsində qeyd olunmuş komissiya haqları və gəlir götürmək və ümumi xərcləri ödəmək üçün adətən edilən əlavələrin göstəriciləri gömrük ərazisinə gətirilmiş eyni sinifdən və ya növdən olan malın gömrük ərazisində satışında mövcud olan analoji göstəricilərlə uyğun

olduğu təqdirdə, idxalatçı tərəfindən və ya idxalatçının adından təqdim olunan məlumatlar əsasında müəyyən edilməlidir. Qanunun 16.2.1-ci maddəsində qeyd olunmuş göstəricilər gömrük ərazisinə gətirilmiş eyni sinifdən və ya növdən olan malın gömrük ərazisində satışında mövcud olan göstəricilərlə uyğun olmadıqda, bu göstəricilər idxalatçı tərəfindən və ya idxalatçının adından təqdim olunan məlumatlardan fərqli digər uyğun gələn məlumatlar əsasında təyin edilə bilər.

5.4. Dəyərləndirilən malların marketinqi ilə bağlı birbaşa və dolayı xərclər ümumi xərclərə daxil edilir.

5.5. Malların satışı ilə əlaqədar olaraq ödənilməli olan və Qanunun 16.2.3-cü maddəsinə uyğun olaraq çıxılmanın həyata keçirilmədiyi gömrük ərazisində ödənilməli olan vergilər Qanunun 16.2.1-ci maddəsinə uyğun olaraq çıxılmalıdır.

5.6. Qanunun 16.2.1-ci maddəsində qeyd olunmuş "komissiya haqları" və ya "gəlir" və "ümumi xərclər" müəyyən edilərkən, bir malın digər mal ilə eyni sinifdən və ya növdən olub-olmaması hər bir hal üzrə mövcud xüsusi şərtlər nəzərə alınmaqla müəyyənləşdirilir. Bunun üçün haqqında zəruri məlumatın əldə edilməsinin mümkün olduğu, dəyərləndirilən malın da daxil olduğu gömrük ərazisinə gətirilmiş ən aşağı sayda maldan ibarət olan eyni sinifdən və ya eyni növdən olan malların gömrük ərazisində satışları araşdırılmalıdır. Həmin maddədə qeyd olunan eyni sinifdən və ya eyni növdən olan mallar dəyərləndirilən malın idxal olunduğu ölkə ilə eyni ölkədən gömrük ərazisinə gətirilmiş mallarla yanaşı, digər ölkələrdən gətirilmiş malları da əhatə edir.

5.7. Qanunun 16.3-cü maddəsinə uyğun olaraq "ən yaxın vaxt" dedikdə, idxal olunan malların və ya idxal olunan eyni və ya eynicinsli malların vahidinin qiymətini müəyyən etməyə imkan verən satışının həyata keçirildiyi tarix başa düşülür.

5.8. Qanunun 16.4-cü maddəsində nəzərdə tutulan üsul istifadə olunduğu hallarda, malların gömrük ərazisində emalı ilə əlaqədar xərclər işin dəyərinə aid olan obyektiv və kəmiyyəti müəyyən edilə bilən məlumatlara əsaslanmalıdır. Müvafiq sənaye sahəsi üzrə qəbul edilmiş formulalar, reseptlər, tikinti metodları və digər sənaye sahə təcrübələri hesablamalar üçün əsas götürülür.

5.9. Qanunun 16.4-cü maddəsi ilə müəyyən edilmiş dəyərləndirmə üsulu idxal olunan mallar gömrük ərazisində növbəti emal nəticəsində öz identikliyini itirdiyi hallarda tətbiq edilmir.

## 6. Dəyərin toplanması üsulunun tətbiqinə dair qaydalar

6.1. Gömrük ərazisinə gətirilən malların gömrük dəyərinin müəyyən edilməsi gömrük ərazisində mövcud olan məlumat əsasında həyata keçirilir. Toplanmış dəyərin müəyyən edilməsi məqsədilə dəyərləndirilən malın istehsal xərclərinin və gömrük ərazisindən kənardan əldə edilməli olan digər məlumatların təhlil edilməsi zəruri ola bilər. Gömrük dəyərinin dəyərin toplanması üsulu əsasında müəyyən edilməsi satıcı və alıcının əlaqəli şəxslər olduğu və istehsalçının gömrük ərazisinin səlahiyyətli orqanlarına zəruri xərcləri təqdim edə bildiyi və onların həqiqiliyinin yoxlanılması məqsədilə lazım olan təhlillərin aparılması üçün şərait yaradacağı hallarla məhdudlaşır.

6.2. Qanunun 17.2.1-ci maddəsində qeyd olunan xərclər və dəyər qiyməti müəyyən ediləcək malın istehsalı ilə əlaqəli olaraq istehsalçı tərəfindən və ya istehsalçının adından təqdim edilən məlumatlar əsas götürülərək təsbit edilməlidir. Bu məlumatlar üçün malın istehsal olunduğu ölkədə tətbiq olunan qəbul edilmiş mühasibat uçotu prinsiplərinə uyğun olması şərtilə istehsalçının kommersiya hesabları əsas götürülür.

6.3. “Xərclər” və “dəyər” anlayışları Qanunun 13.2.1.2-ci və 13.2.1.3-cü maddələrində qeyd olunmuş elementlərin dəyərlərini əhatə etməlidir. “Xərclər” və “dəyər” anlayışları Qanunun 13.2.2-ci maddəsində nəzərdə tutulan idxal olunan malların istehsalı ilə əlaqədar olaraq alıcı tərəfindən birbaşa və ya dolayı olaraq tədarük edilən istənilən elementin bu Qaydaların 2-ci hissəsinə uyğun olaraq paylaşdırılmış dəyərini də əhatə etməlidir. Qanunun 13.2.2.4-cü maddəsində nəzərdə tutulmuş faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə əlavə edilən gömrük ərazisində həyata keçirilmiş əməliyyatların dəyəri istehsalçıdan tutulduğu həddə nəzərə alınır. Bu bənddə istinad edilən elementlərin xərci və ya dəyəri toplanmış dəyərin müəyyən edilməsi zamanı iki dəfə hesablana bilməz.

6.4. Qanunun 17.2.2-ci maddəsində qeyd olunan mənfəət və ümumi xərclərin həcmi istehsalçı tərəfindən və ya istehsalçının adından təqdim olunan məlumatlar əsas götürülərək müəyyən edilir. Bu məlumatlarda göstərilən rəqəmlərin dəyərləndirilən mal ilə eyni növ və ya eyni sinifdən olan ixrac ölkəsindəki istehsalçılar tərəfindən istehsal edilən malın gömrük ərazisinə ixrac məqsədilə satışında mövcud olan rəqəmlərlə uyğun olması zəruridir.

6.5. “Mənfəət və ümumi xərclərin həcmi” vahid olaraq nəzərə alınmalıdır.

6.6. Toplanmış dəyərin müəyyən edilməsi məqsədilə istehsalçı tərəfindən və ya onun adından təqdim edilmiş məlumatlardan əlavə, digər məlumatlar istifadə olunduqda Azərbaycan Respublikasının səlahiyyətli orqanları idxalatçının xahişi əsasında Qanunun 9-cu maddəsinin tələblərinə riayət etməklə, idxalatçını belə informasiyaların mənbəyi, istifadə olunan məlumatlar və həmin məlumatlara əsaslanan hesablamalar barədə məlumatlandırmalıdır.

6.7. Qanunun 17.2.2-ci maddəsində “ümumi xərclər” dedikdə ixrac məqsədli malların istehsalı və satışı ilə əlaqəli Qanunun 17.2.1-ci maddəsinin əhatə dairəsinə daxil edilməyən birbaşa və dolayı xərclər başa düşülür.

6.8. Müəyyən bir malın digər mal ilə eyni sinifdən və ya eyni növdən olub-olmadığı hər bir hal üzrə mövcud şərtlər nəzərə alınmaqla müəyyənləşdirilir. Qanunun 17-ci maddəsinin məqsədləri üçün “mənfəət və ümumi xərclər”in müəyyən edilməsi zamanı haqqında zəruri məlumat əldə edilməsi mümkün olan, dəyərləndirilən malın da daxil olduğu eyni sinif və ya eyni növdən olan malların gömrük ərazisinə ixrac məqsədilə ən aşağı sayda mal qrupu və ya çeşidi səviyyəsində satışları araşdırmalıdır. Həmin maddədə qeyd olunan eyni sinifdən və ya eyni növdən olan mallar dəyərləndirilən malın idxal olunduğu ölkə ilə eyni ölkədə istehsal edilmiş olmalıdır.

## 7. Ehtiyat üsulun tətbiqinə dair qaydalar

7.1. Qanunun 18-ci maddəsinə əsasən müəyyən edilən gömrük dəyəri əvvəlcədən müəyyən olunmuş gömrük dəyərlərinə əsaslanmalıdır.

7.2. Qanunun 18-ci maddəsi çərçivəsində istifadə olunan dəyərləndirmə üsulları Qanunun 13-17-ci maddələrində nəzərdə tutulmuş üsullar olmalıdır. Bu metodların tətbiqində ağlabatan çeviklik Qanunun 18-ci maddəsinin məqsəd və müddəalarına uyğun olmalıdır.

"Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair Qaydalar"a

**əlavə**

## Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair nümunələr və qeydlər

| Sıra №-si | "Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair Qaydalar"ın müvafiq struktur elementi | Nümunələr və qeydlər |
|---|---|---|
| 1. | 1.7-ci bənd | 1.1. Qanunun 13-cü maddəsinin məqsədləri üçün gəlir və ümumi xərclərin müəyyən edilməsi gömrük ərazisində qəbul olunmuş mühasibat uçotu prinsipləri, Qanunun 14-cü maddəsinin məqsədləri üçün gəlir və ümumi xərclərin müəyyən edilməsi isə istehsal ölkəsində qəbul olunmuş mühasibat uçotu prinsipləri əsasında hesablanır;<br>1.2. Qanunun 13.2.2.2-ci maddəsində nəzərdə tutulmuş, alıcı tərəfindən təmin edilən və gömrük ərazisində istehsal edilmiş olan ləvazimatın qiymətinin müəyyən edilməsi zamanı gömrük ərazisində qəbul olunmuş mühasibat uçotu prinsiplərinə uyğun olan formada hazırlanmış informasiyadan istifadə edilir |
| 2. | 2.1-ci bəndin ikinci cümləsi | Satıcının borcunun tam və ya qismən alıcı tərəfindən ödənilməsi dolayı ödəniş hesab olunur |
| 3. | 2.4-cü bənd | Satıcının avtomobil alıcısından avtomobilləri model ilinin başlanğıcını ifadə edən konkret tarixdən əvvəl satmaması və ya nümayiş |

| | | |
|---|---|---|
| | | etdirməməsini tələb etməsi malların gömrük dəyərinə əhəmiyyətli təsir etməyən məhdudiyyət hesab olunur |
| 4. | 2.5-ci bənd | 4.1. İdxal olunmuş mallara münasibətdə dəyəri müəyyən edilə bilməyən şərt və ya öhdəliklərə dair nümunələr:<br>4.1.1. satıcı idxal olunmuş malların qiymətini alıcının müəyyən olunmuş kəmiyyətdə digər malları almasından asılı olaraq müəyyən edir;<br>4.1.2. idxal olunmuş malların qiyməti onların alıcısının satıcısına digər malların hansı qiymət və ya qiymətlərdə satmasından asılıdır;<br>4.1.3. qiymət idxal olunan mallarla əlaqəli olmayan ödəmə forması əsasında müəyyən olunmuşdur. Məsələn, idxal olunan mallar satıcı tərəfindən onun müəyyən miqdarda son məhsulu əldə edəcəyi şərtilə təchiz olunan yarımfabrikat mallardır |
| 5. | 2.6-cı bənd | 5.1. Alıcının gömrük ərazisində yerinə yetirilmiş mühəndislik işlərini və planlarını satıcıya təqdim etməsi Qanunun 13-cü maddəsinin məqsədləri üçün sövdələşmə qiymətinin qəbulundan imtinaya səbəb olmur.<br>5.2. Satıcı ilə razılaşdırılmasından asılı olmayaraq, alıcının öz hesabına idxal olunan malın marketinqi ilə əlaqəli etdiyi hərəkətlərin dəyəri gömrük dəyərinin tərkibinə daxil edilmir və belə hərəkətlərin edilməsi sövdələşmə qiymətinin rədd edilməsi ilə nəticələnmir |
| 6. | 2.7.5-ci yarımbənd | 6.1. İdxalatçı bütün dəyər üzrə gömrük rüsumunu bir dəfəyə ödəmək istədikdə dəyər birinci göndəriş üzrə paylaşdırıla bilər.<br>6.2. İdxalatçı dəyərin ilk göndərişədək istehsal olunmuş mal vahidlərinin sayı üzrə paylaşdırılmasını tələb edə bilər.<br>6.3. İstehsal üçün müqavilə və ya məcburi öhdəliklərin mövcud olduğu hallarda idxalatçı dəyərin gözlənilən bütün istehsal üzrə paylaşdırılmasını tələb edə bilər |

| | | |
|---|---|---|
| | | 6.4. Yuxarıda qeyd olunan hallara misal olaraq məsələn, idxalatçı istehsalçıya idxal olunan malın istehsalında istifadə edilməsi üçün bir qəlib verir və istehsalçı ilə 10000 vahid malın alınması ilə bağlı müqavilə bağlayır. 1000 vahidlik ilk göndərmə vaxtına-dək istehsalçı 4000 vahid malı istehsalını bitirmişdir. İdxalatçı gömrük orqanından qəlibin dəyərinin 1000 vahid, 4000 vahid və ya 10000 vahid üzərində paylaşdırılmasını tələb edə bilər |
| 7. | 2.8-ci bənd | 7.1. Müxtəlif ölkələrdən müxtəlif mallar idxal edən bir şirkət dizayn mərkəzinin hesabatlarını konkret bir mala aid edilə biləcək xərcləri düzgün bir formada göstərəcək şəkildə gömrük ərazisindən kənarda saxlaması halında Qanunun 13-cü maddəsinin müddəaları çərçivəsində müvafiq qaydada birbaşa düzəlişlər edilə bilər.<br>7.2. Şirkət dizayn mərkəzinin xərclərini konkret mallara bölüşdürmədən ümumi xərc olaraq gömrük ərazisindən kənara apara bilər. Bu halda idxal edilən mal ilə əlaqəli olaraq Qanunun 13-cü maddəsinə uyğun düzəlişlər dizayn mərkəzinin ümumi xərcinin həmin mərkəzdən yararlanmaqla istehsal olunan bütün istehsala paylaşdırılması və bu xərcin hər bir vahid üçün idxala əlavə edilməsi formasında edilə bilər |
| 8. | 2.12-ci bənd | Gömrük orqanı əvvəllər alıcı və satıcı arasında əlaqəni araşdırdığından və ya alıcı və satıcı barədə artıq detallı informasiyaya malik olduğundan, belə araşdırmadan və ya informasiyadan əlaqənin qiymətə təsir etmədiyi nəticəsinə gələ bilər |
| 9. | 2.13-cü bəndin üçüncü cümləsi | 9.1. Qiymətin baxılan sənaye sahəsində normal qiymət təcrübəsinə uyğun formada təyin edilməsi və ya satıcı tərəfindən qiymətin onunla əlaqəli olmayan alıcılar üçün qiymətin müəyyən edildiyi şəkildə müəyyən edilməsi |

| | | |
|---|---|---|
| | | qiymətin əlaqədən təsirlənmədiyini göstərmiş olur.<br>9.2. Qiymətin bütün xərclərin və əlavə olaraq şirkətin eyni sinifdən və eyni növdən olan malların satışında müəyyən müddət (məsələn, illik əsasda) ərzində əldə etdiyi ümumi gəlirlə (mənfəətlə) müqayisə edilə bilən gəlirin (mənfəətin) ödənilməsinə uyğun olduğunun əsaslandırılması qiymətin təsirlənmədiyini sübut edir |
| 10. | 2.15-ci bənd | Bir növ mallara aid olan halda dəyərdə kiçik fərq qəbuledilməz olduğu halda, digər mallara aid olan halda dəyərdə böyük fərq sövdələşmə qiymətinin Qanunun 13.7-ci maddəsində qeyd olunan dəyərlərdən birinə yaxın olduğunun müəyyən edilməsi zamanı qəbul edilə bilər |
| 11. | 2.16-cı bənd | Kiloqram əsasında idxal edilən və idxaldan sonra maye halına gətirilən müəyyən bir malın idxal ölkəsində satışının hər bir litri üzrə qiyməti əsasında royalti ödənilir. Royalti qismən idxal olunan mala, qismən də idxal olunan mal ilə əlaqəli olmayan digər faktorlara əsaslanırsa (idxal edilən malların yerli tərkiblər ilə qarışdırıldığı və artıq ayrı olaraq fərqləndirilə bilinmədiyi hallarda və ya royalti alıcı və satıcı arasında xüsusi maliyyə razılaşmalarından fərqləndirilməsi mümkün olmadıqda), royaltiyə görə əlavə edilməyə cəhd edilməsi məqbul hesab olunmur. Bununla yanaşı, royalti məbləği sadəcə idxal olunan mala əsaslanırsa və rahatlıqla hesablana bilinməsi halında faktiki ödənilmiş və ya ödənilməli qiymətə əlavə edilə bilər |
| 12. | 3.6-cı bənd | 12.1. Fərqli səviyyələrə və ya fərqli miqdarlara istinad edən qiymətləri əks etdirən və hazırda qüvvədə olan qiymət siyahıları ağlabatanlılığını və dəqiqliyini aşkar şəkildə nümayiş etdirən sübuta nümunə hesab oluna bilər. |

| | | |
|---|---|---|
| | | 12.2. Dəyərləndirilən idxal olunan mal partiyası 10 vahiddən ibarətdirsə sövdələşmə qiymətinin mövcud olduğu idxal olunmuş eyni mallar 500 vahidi əhatə edirsə və satıcının miqdar endirimləri etdiyi məlumdursa, satıcının qiymət siyahısına baxılaraq 10 vahidlik bir satış üçün tətbiq olunan qiymət əsas götürülməklə düzəliş edilə bilər. Bu satışın 10 vahid miqdarında həyata keçirilməli olduğu şərtini tələb etmir, bu şərtlə ki, qiymət siyahısının digər miqdarlarda satışlar yolu ilə həqiqi olduğu müəyyən edilmiş olsun. Bununla belə, bu cür obyektiv tədbirin olmadığı halda Qanunun 14-cü maddəsinə uyğun olaraq gömrük dəyərinin müəyyən olunması müvafiq hesab olunmur |
| 13. | 4.6-cı bənd | 13.1. Fərqli səviyyələrə və ya fərqli miqdarlara istinad edən qiymətləri əks etdirən qiymət siyahıları ağlabatanlılığını və dəqiqliyini aşkar şəkildə nümayiş etdirən sübuta nümunə hesab oluna bilər.<br>13.2. Dəyərləndirilən idxal olunan mal partiyası 10 vahiddən ibarətdirsə sövdələşmə qiymətinin mövcud olduğu idxal olunmuş eyni mallar 500 vahidi əhatə edirsə və satıcının miqdar endirimləri etdiyi məlumdursa, satıcının qiymət siyahısına baxılaraq 10 vahidlik bir satış üçün tətbiq olunan qiymət əsas götürülməklə düzəliş edilə bilər. Bu satışın 10 vahid miqdarında həyata keçirilməli olduğu şərtini tələb etmir, bu şərtlə ki, qiymət siyahısının digər miqdarlarda satışlar yolu ilə həqiqi olduğu müəyyən edilmiş olsun. Bununla belə, bu cür obyektiv tədbirin olmadığı halda Qanunun 15-ci maddəsinə uyğun olaraq gömrük dəyərinin müəyyən olunması müvafiq hesab olunmur |
| 14. | 5.1-ci bənd | 14.1. Mal daha böyük miqdarda aparılan satışlar üçün daha əlverişli qiymətlərin müəyyən olunduğu qiymət siyahısı üzrə satılır: |

| Satış miqdarı | Vahidinin qiyməti | Satış sayı | Ümumi satış həcmi |
|---|---|---|---|
| 1-10 vahid | 100 | 5 vahiddən 10 satış 3 vahiddən 5 satış | 65 |
| 11-25 vahid | 95 | 11 vahiddən 5 satış | 55 |
| 25 vahiddən yuxarı | 90 | 30 vahiddən 1 satış 50 vahiddən 1 satış | 80 |

Bir qiymət üzrə satılmış ən böyük miqdarda mal vahidi "80"-dir, bu baxımdan "ən böyük həcmdə satılmış malların bir vahidinin qiyməti" "90"-dır.

14.2. İki satış baş tutmuşdur. Birinci satışda 500 mal vahidi "95" qiymətinə, ikinci satışda isə 400 mal vahidi "90" qiymətinə satılmışdır. Bir qiymət üzrə satılmış ən böyük həcmdə mal vahidi "500"-dür, bu baxımdan "ən böyük həcmdə satılmış malların bir vahidinin qiyməti" "95"-dir.

14.3. Müxtəlif mal miqdarları müxtəlif qiymətlər ilə satılmışdır:

| Satış miqdarı | Vahidinin qiyməti |
|---|---|
| 40 | 100 |
| 30 | 90 |
| 15 | 100 |
| 50 | 95 |
| 25 | 105 |
| 35 | 90 |
| 5 | 100 |

<table>
<tr><td></td><td></td><td>
<table>
<tr><th>Satılan ümumi miqdar</th><th>Vahidinin qiyməti</th></tr>
<tr><td>65</td><td>90</td></tr>
<tr><td>50</td><td>95</td></tr>
<tr><td>60</td><td>100</td></tr>
<tr><td>25</td><td>105</td></tr>
</table>
Bu nümunədə müəyyən bir qiymət ilə satılan ən yüksək miqdardakı ümumi satış “65”-dir, bu baxımdan “ən böyük həcmdə satılmış malların bir vahidinin qiyməti” “90”-dır</td></tr>
<tr><td>15.</td><td>5.8-ci bənd</td><td>15.1. İdxal olunmuş mallar identikliyi itirilmiş olsa belə emal nəticəsində əlavə olunan dəyərin əsassız çətinlik olmadan müəyyən edilməsi mümkün ola bilər.<br>15.2. İdxal olunan mallar öz identikliyini qorumuş olsa da, idxal olunan ölkədə satılan mallarda o qədər çox kiçik əhəmiyyətli elementi təşkil edə bilər ki, bu dəyərləndirmə üsulunun tətbiqini əsaslandırmaq mümkün olmur.<br>15.3. Yuxarıdakı nümunələr nəzərə alınmaqla halların hər birinə fərdi qaydada baxılması zəruridir</td></tr>
<tr><td>16.</td><td>6.1-ci bənd</td><td>Əksər hallarda malların istehsalçısı Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının yurisdiksiyasından kənarda olacaqdır</td></tr>
<tr><td>17.</td><td>6.5-ci bənd</td><td>17.1. İstehsalçının gəliri aşağı və xərclərinin yüksək olması halında birlikdə nəzərə alınan istehsalçının gəlir və ümumi xərcləri eyni sinifdən və ya eyni növdən olan malların satışlarında mövcud olan göstəricilərə uyğun ola bilər.<br>17.2. Gömrük ərazisində ilk dəfə bazara çıxarılan malın yüksək olan ümumi xərclərini ödəmək məqsədilə istehsalçının sıfır və ya aşağı gəliri qəbul etməsi belə bir hala nümunə</td></tr>
</table>

| | | |
|---|---|---|
| | | ola bilər. İstehsalçı gömrük ərazisinə gətirilən malın satışlarındakı aşağı gəliri xüsusi ticari şərtlər ilə izah edə bilirsə, bu halı sübut edə biləcək aktual ticari səbəblərin mövcudluğu və onun qiymət siyasətinin həmin sənaye sahəsindəki mövcud qiymət siyasətini əks etdirməsi şərtilə istehsalçının gəlir rəqəmləri nəzərə alınır.<br>17.3. İstehsalçının daha əvvəlcədən proqnozlaşdırıla bilinməyən bir səbəblə tələbin düşməsi nəticəsində müvəqqəti bir müddət üçün qiyməti aşağı salmaq məcburiyyətində qalması və ya gömrük ərazisində istehsal olunan bir qrup malın komponenti olan bir malı satmaq məcburiyyətində olduğu üçün rəqabət edə bilmək məqsədilə aşağı gəlirə razı olması belə bir vəziyyətə nümunə hesab olunur.<br>17.4. İstehsalçının gəlir və ümumi xərclərə dair rəqəmlərinin ixrac ölkəsindəki istehsalçılar tərəfindən dəyərləndirilən mal ilə eyni sinifdən və ya eyni növdən olan malın gömrük ərazisinə ixrac məqsədilə satışında mövcud olanlarla uyğun olmaması halında malın istehsalçısı tərəfindən və ya onun adından təqdim olunan məlumatlardan kənar uyğun məlumatlar əsas götürülə bilər. |
| 18. | 7.2-ci bənd | 18.1. Eyni malların sövdələşmə qiyməti üsulunun tətbiqində çeviklik üzrə:<br>18.1.1. eyni malların qiymətləndirilən mallarla eyni vaxtda və ya təqribən eyni vaxtda ixrac edilməsi tələbi üzrə çevik şərhə yol verilə bilər;<br>18.1.2. dəyərləndirilən malların ixrac olunduğu ölkədən başqa ölkədə istehsal olunmuş eyni mallar gömrük dəyərləndirilməsi üçün əsas ola bilər;<br>18.1.3. eyni idxal mallarının Qanunun 16-cı və 17-ci maddələrinin tələblərinə uyğun olaraq artıq müəyyən olunmuş gömrük dəyərlərindən istifadə oluna bilər. |

| | | |
|---|---|---|
| | | 18.2. Eynicinsli malların sövdələşmə qiyməti üsulunun tətbiqində çeviklik üzrə:<br>18.2.1. eynicinsli malların qiymətləndirilən mallarla eyni vaxtda və ya təqribən eyni vaxtda ixrac edilməsi tələbi üzrə çevik şərhə yol verilə bilər;<br>18.2.2. dəyərləndirilən malların ixrac olunduğu ölkədən başqa ölkədə istehsal olunmuş eynicinsli mallar gömrük dəyərləndirilməsi üçün əsas ola bilər;<br>18.2.3. eynicinsli idxal mallarının Qanunun 16-cı və 17-ci maddələrinin tələblərinə uyğun olaraq artıq müəyyən olunmuş gömrük dəyərlərindən istifadə oluna bilər.<br>18.3. Dəyərin çıxılması üsulunun tətbiqində çeviklik üzrə:<br>18.3.1. Qanunun 16.2-ci maddəsi ilə müəyyən edilmiş malların "idxal olunduğu vəziyyətdə" satılmasına dair tələb çevik şəkildə şərh edilə bilər;<br>18.3.2. "90 (doxsan)" gün tələbi çevik şəkildə idarə oluna bilər. |